Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Müəllim keçmişi öyrədən, gələcəyi qurandır

**5 oktyabr Müəllimlər Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Müəllim-keçmişi öyrədən, gələcəyi qurandır-** 5 oktyabr Müəllimlər Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Aynurə Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 38s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

*Tərtibçidən*

*Necə müqəddəssən, necə əzizsən,*
*Vətənsən, anasan, dilsən,  müəllim.*
*Hər insan ömründə şərəfli izsən,*
*Solmayan çiçəksən, gülsən, müəllim,*

*Əlifba da sənsən, elm də sənsən,*
*Kəşflər eyləyən alim də sənsən,*
*Əhsən bu qüdrətə, bu ada əhsən,*
*Ucaldan, yaradan əlsən, müəllim...*

*Dərgah Mehdiyev*

5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür. Bu əlamətdar gün UNESKO-nun qərarı ilə 1966-cı ildən qeyd edilir. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul olunub. Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır.

Beynəlxalq Müəllimlər Günü bütün dünyada müəllim əməyini qeyd etməyə, parlaq zəkaların və istedadlı gənclərin bu peşəyə cəlb olunmasına və bu sahədə saxlanılmasının həlli yollarını tapmağa və ümumiləşdirmələr aparmağa imkan yaradır. Azərbaycanda Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. Ölkəmizdə bu günə dövlət səviyyəsində diqqət ayrılır. Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir.Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir.

Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməyində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O, hər zaman öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürək dolusu danışardı. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. O, deyirdi: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".

"Müəllim" ərəbcədən tərcümədə "dərs keçən, tədris edən", geniş mənada Azərbaycan dilinin izahlı lüğətində məktəbdə hər hansı bir fəndən dərs deyən adam, nəsihət verən, öyüd verən, öyrədən, ağıl verən deməkdir. Müəllim - ilk növbədə insandır, bilikli, savadlı, tərbiyəli, uşaqları və peşəsini sevəndir, uşaqları, gəncləri xalqın, vətənin gələcəyi üçün hazırlayan vətənpərvərdir, vətəndaşdır, ictimai xadimdir.

5 oktyabr - Beynəlxalq Müəllimlər Günü dünyada milyonlarla insan tərəfindən qeyd olunur. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur. Bu məqsədlə bu vəsaiti işləməyi özümüzə borc bilirik. Vəsait iki hissədən ibarətdir. I hissə "*Müəllim-keçmişi öyrədən, gələcəyi qurandır"* adlanır. II hissədə isə *"Müəllim olan yerdə nə lazım günəş, Onsuz da günəşdir, özü müəllimin...."* adlanır və kitabxanada təşkil olunan tədbirlərdən söhbət açılır.

## Keçiriləcək tədbirlər

5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucularla söhbət, konfrans, dəyirmi masa, şeir və rəsm müsabiqəsi, səhnəcik və s. keçirilə bilər. Bu əlamətdar günü və xüsusiyyətlərini gənc nəslə və oxuculara tanıtmaq məqsədi ilə kitabxanada kitab sərgisi də təşkil oluna bilər. Sərgidə bu mövzu ilə bağlı çəkilmiş şəkillərdən ibarət fotostend, müxtəlif adda kitablarla yanaşı, müəlim, məktəb, təhsil ilə bağlı yazılan kitablar, araşdırmalar, mövzuya ithaf edilən şeirlər, kəlamlar və bu yöndə dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir", "Dünyanın ən gözəl peşəsi-müəllim", "Şərəfli müəllim ömrü", "Şama bənzəyən müəllim ömrü", "Ey hörmətli müəllim", "Ən gözəl bağbandır müəllim", "Canlı ulduzlar", "Müəllim ömrü", "Hamımız ona borcluyuq", "Sənətlərin ən gözəli", "Əbədiyyətə işıq salanlar", "Heç zaman unudulmayan müəllimlərimiz", "Müəllim olan yerdə nə lazım günəş, Onsuz da günəşdir, özü müəllimin....", "Müstəqilliyinin əbədi olunmasında təhsilin rolu əvəzsizdir", "Ömrü boyunca nəsil-nəsil vətəndaşlar yetişdirən Azərbaycan müəllimi", "Müəllim-keçmişi öyrədən gələcəyi qurandır", "Hamımız ona borcluyuq", "Bütün peşələrin fövqündə dayanan müqəddəs peşə-müəllim" və s.

## Görkəmli şəxsiyyətlər müəllim haqqında

Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram.

**Heydər Əliyev,**
*Ümumimilli lider*

Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Müəllim evi kitabxanadır, dövləti kiçik şagirdlər, sazı və nəğməsi şağirdlərin savadı, qazancı isə millətin məhəbbət və ehtiramıdır.

**Sultan Məcid Qənizadə,**
*yazıçı*

Müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər.

**Mustafa Kamal Atatürk,**
*Türkiyə Cumhuriyyətinin qurucusu*

Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz.

**Sokrat,**
*Qərb fəlsəfəsinin yaradıcılarından*

Müəllim, bir zəkanı tamamilə hazır məlumatlarla dolduran təlimçi deyil, tələbələr öz özlərinə fikirlərini inkişaf etdirmələri üçün onları cəlb edən bir insan olmalıdır.

**Alekis Karrel,**
*Fransız yazıçısı*

Yaxşı müəllim şagirdinə həqiqəti çatdırır, onu tapmağı öyrədir.

**Adolf Disterveq,**
*Alman pedaqoqu*

Anam məni bu dünyaya gətirib, amma müəllimim isə mənə bu dünyada həqiqi səadət yolunu tapmaqda yol göstərib.

**Aristotel,**
*Qədim yunan filosofu*

Müəllim bir memar, mühəndisdir ki, insanların düşüncələrini, ağlını düzəldir.

**Atalar sözü**

Yenidən dünyaya gəlsəm yenə müəllim olaram.

**Xalidə İsmayılova,**
*Azərbaycan müəllimi*

Biliksiz müəllim susuz bulağa, işıqsız lampaya bənzəyir.

**Yan Amos Komenski,**
*İctimai xadim*

5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq, kitabxanada təşkil olunan tədbirlərdən biri də tələbələr arasında keçirilən “**Ömrü boyunca nəsil-nəsil vətəndaşlar yetişdirən Azərbaycan müəllimi”** adlı *“dəyirmi masa”*dır.

Tədbirdə müəllimlər, alimlər, araşdırmacılar, ali məktəb tələbələri və s. qonaqlar iştirak edir. İlk olaraq kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır və 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü haqqında məlumat verir:

***Kitabxanaşı:*** Müəllim... Adi söz deyil bu... Müəllimlik – müqəddəs peşədir, şərəfli peşədir. Əsl müəllim-bir günəşdir, ürəyinin istisini, beyninin odunu heç kəsdən əsirgəməyən bir günəş. Gözünün nurunu damla-damla şagirdlərinin yoluna səpən, bunun nəticəsində gözü nurdan düşsə də, özü daim məğrur, adı daim yüksək olan günəş...

Müəllim - bir günəşdir. Hər axşam qürub edən günəş hər səhər yenidən doğduğu kimi, müəllim də yaşının üstünə yaş gəldikcə ömrünün qürub çağını yaşasa da, şagirdlərinin simasında yenidən doğur, yenidən dünyaya gəlir. Deməli, əsl müəllim ədədi yaşayır.

Bu gün dünya ictimaiyyətinin hər zaman məhəbbətlə qarşıladığı müəllimlərin peşə bayramı – Beynəlxalq Müəllimlər günüdür. 5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YİNESKO tərəfindən verilib. Müəllimlərinin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlərin peşə bayramı qeyd edilir. Bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir. Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla

insanın əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyətin formalaşdığı zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Bu cür məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Bu baxımdan müəllimlik peşəsi heç bir peşə ilə ölçüyə gəlməyən bir sahədir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegomon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə, nəyi isə əxz etməyə çalışır. “Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram”, deyən Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün müəllimi və müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmət və ehtiramla yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Həyatı, yazıb-yaratmağı öyrədən müəlliminə mənən borclu olduğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bu sözgəlişi deyilən fikirlər deyil, bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti, illər hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq da cəmiyyətə hazırlayır. Elm və savadla birgə, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Əgər

müəllim özünü tərbiyə edib, kamil insani sifətləri özündə aşılayıbsa, deməĸ, müəllim adı ona yaraşır.

Bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Bu cur məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə müqayisəyə gəlməyən bir nümunədir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram", - deyən Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır.

*Kitabxanaçı çıxışının sonunda müəllimlərə üz tutub aşağıdakı misraqları söyləyərək, onları təbrik edir.*

**_Müəllim ömrü_**

...Daşda naxış açan memara bax bir,
Bu sənət heç kəsə gəlməsin asan.
Gör sənin sənətin necə çətindir,
Canlı beyinlərdə naxış açırsan.
Alim kəşf eyləyir, yazır müttəsil,
Sənin də bunlarda var alın tərin.
Sən də yaradansan, kitablar deyil,

Alimin özüdür sənin əsərin.

*Kitabxanaçının çıxışından sonra qonaqlar müəyyən ardıcılıqla öz çıxışlarına keçid alır.*

***I İştirakçı:*** Dünyanın dərk edilməsi elmlə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Həyatı, yazıb-yaratmağı öyrədən müəlliminə mənən borclu olduğuğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Müəllim özünü tərbiyə edib, özündə kamil insani sifətləri aşılayıbsa, demək, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, demək, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan

yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Belə ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı" bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir.
"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb. Dövlət proqramlarının icrası nəticəsində, son 15 ildə Bakı şəhərində və Respublikanın bölgələrində 3000-dən çox yeni məktəb tikilib və yaxud əsaslı təmir edilib. Bunun nəticəsində, təxminən 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb.
Ölkəmizdə aparılan yenidənqurma işləri, iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar təhsilin inkişafına birbaşa təsirini göstərir. Təhsilin səviyyəsi keyfiyyət baxımından, yeni mərhələni yaşayır. Müasir gənclik sabit ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkərək, Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-

siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Ümummilli Lider Heydər Əliyevin milli təhsil quruculuğu strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkənin tərəqqi və inkişafına zəmin yaratdı. Bu gün Ulu Öndər Heydər Əliyevin maarifçilik ideyalarını Prezident İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva əzmlə və uğurla həyata keçirir.

Son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Son illərdə ölkəmizdə, heç bir dövrdə olmadığı qədər, yeni məktəblər tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici haldır ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir.

Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə, öz mükəmməlliyi ilə seçilir. Heydər Əliyev Fondu ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, həmin təhsil müəssisələrinin əyani vəsaitlər və şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni və müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir və tədrisin səviyyəsini yüksəldir.

***II İştirakçı:*** Bu gün təhsilin keyfiyyətinin artırılması, daha savadlı kadrların seçilməsi məqsədi ilə müəllimlərin işə götürülməsi müsabiqə yolu ilə aparılır. Azərbaycanda təhsilə verilən qiymət və diqqət artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb. Gələcəyin inkişafı onun təhsilindən başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Buna görə də məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə, müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Müstəqil Azərbaycan iyirmi birinci yüzillikdə qlobal inteqrasiya mexanizminə qoşulmuş sivil, demokratik dövlət kimi inkişafını elm və təhsildən kənarda görmür, bu sahələrin inkişafına daim xüsusi diqqət yetirir.

Dərindən fikirləşsək, görərik ki, cəmiyyətdə müəllimin əməyi böyükdür və gələcəyin inkişaf etməsində və tərəqqisində bugünkü şagirdlərin böyük rolu olacaq. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur, böyük hörmətlə və yüksək ehtiramla çəkilir.

Vətənə layiqli vətəndaş yetişdirən müəllimin əməyi çox böyük olduğundan, onun bu peşədən qürur duymağa və fəxr etməyə haqqı var.

***III İştirakçı:*** "Müəllim" ərəbcədən tərcümədə "dərs keçən, tədris edən", geniş mənada Azərbaycan dilinin izahlı lüğətində məktəbdə hər hansı bir fəndən dərs deyən adam, nəsihət verən, öyüd verən, öyrədən, ağıl verən deməkdir. Müəllim - ilk növbədə insandır, bilikli, savadlı, tərbiyəli, uşaqları və peşəsini sevəndir, uşaqları, gəncləri xalqın, vətənin gələcəyi üçün hazırlayan vətənpərvərdir, vətəndaşdır, ictimai xadimdir .

"Yaxşı müəllim nə deməkdir" sualına V.A.Suxomlinski belə cavab verirdi: Müəllim kimdir ? "O, ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər, uşaqlarla dostluq etməyi bacarır, uşaqların sevincini və kədərini ürəyinə sala bilir, uşağın qəlbini oxuyur və heç vaxt unutmur ki, özü də vaxtilə uşaq olub.

İkincisi, yaxşı müəllim tədris etdiyi fənnin elmini yaxşı bilir, ona vurğunluqla onun inkişaf üfüqlərini - yeni kəşfləri, tədqiqatları, nailiyyətləri izləyir, o elmin problemlərindən də xəbərdardır. Yaxşı müəllim orta məktəbin tədris proqramında nəzərdə tutulanlardan daha çox bilir. Dərin bilik, geniş dünyagörüş şagirdlər qarşısında elmin, biliyin, fənnin, tədris prosesinin cəzbedici qüvvəsini aça bilmək üçün vacibdir. Şagirdlər müəllimin simasında ağıllı, bilikli, düşüncəli, sənətinə vurğun bir insan görməlidirlər...

Üçüncüsü, yaxşı müəllim psixologiya və pedaqogika elmlərini bilən, tərbiyə haqqında elmləri bilmədən uşaqlarla işləməyin mümkünsüzlüyünü hiss və dərk edən insan olmalıdır.

Dördüncüsü, yaxşı müəllim öz peşəsinin ustası olmalıdır". *(V.A.Suxomlinski, İzbrannıye pedaqoqiçeskiye soçineniya, 3-cü cild, səh. 43, Moskva - 1980).*

Müəllim gənc nəslin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini - uşaqları, öz ümidini, öz gələcəyini müəllimə etibar edir. Bununla sanki məktəbin, müəllimin məqsədi, vəzifəsi müəyyənləşdirilir - xalqın, dövlətin gələcəyini formalaşdırmaq, "Təhsil Haqqında" qanunda təsbit olunduğu kimi, "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir".

Bəli, müəllimlik çox şərəfli peşədir - vəzifədir, şərəfli olduğu qədər də mürəkkəb, məsuliyyətli vəzifədir.
Bu barədə dahi Ü.Hacıbəyov belə yazırdı: "Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Uşaq dəxi qabili - tərbiyə bir şey olduğuna görə, onu nə tövr tərbiyə etsən, o cür də adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar. Bu ağır sənətə qədəm qoyan müəllim əfəndi bunların hamısını əvvəlcə mülahizəyə almalıdır. Müəllimliyi özü üçün Sibir əzabı bilən müəllim, yaxşıdır özünü bu sənətdən kənar etməklə, zəhmətdən və cavabdehlikdən qurtarsın, qəlbində tərbiyə və təlimə bir şövq və həvəs yoxsa, heç bu işə girməsin və bu sənəti əhl adamlara tərk ilə özünə başqa bir kəşhi - ruzi

vasitəsi axtarsın". (Ü.Hacıbəyov. Seçilmiş əsərləri, Bakı - 1985. səh.128-129).

*Kitabxanada hər zaman oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq kitabxanada növbəti müsabiqə təşkil olunur. Məktəblilər müsabiqəyə cəlb olunur və bu haqda məlumatlandırılırlar. Oxucular bu günün mahiyyəti ilə tanış olur və əlamətdar günə uyğun rəsmlər çəkirlər. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir.*

Şagirdlər əlamətdar günə uyğun şəkillər çəkirlər. Ən çox diqqəti çəkən motivlər, müəllim və onun böyüklüyünü əks etdirən bir neçə xüsusiyyət ağ vərəqlərə həkk olunur. Müsabiqənin qaliblərini müəyyən etmək üçün münsiflər heyəti təyin olunur. Sözü gedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər. Qaliblər təyin edildikdən sonra, xüsusi diplom və fəxri fərmanlarla mükafatlandırılır, müxtəlif yazıçı və şairləin kitabları ilə təltif olunurlar.

*5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq, kitabxanada* ***"Ey hörmətli müəllim"*** *adlı şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur.*

Məktəblilər əvvəlcədən müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər heyəti öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alaraq, əlamətdar gün haqqında məlumat verib, sözü gedən gün haqqında yazılan müəyyən əsər və kitablardan söhbət açır. Kitabxanaçının çıxışından sonra şagirdlər ard-arda öz şeirlərini deməyə keçid alırlar.

*İlk olaraq birinci iştirakçı İbrahim Yusifoğlunun "Müəllim ömrü" adlı şeirini deməyə başlayır.*

Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi, ləpəli çaydı,
Ömrü ömürlərə paylanan paydı,
Safdı, müqəddəsdi müəllim ömrü.

Həlimlik gözünün qarasındadı,
Əzizlik qəlbinin parasındadı.
Hər an şagirdlərin arasındadı,
Kövrəlmiş bir səsdi, müəllim ömrü.

Günəş hərarətli, dağ vüqarlıdır,
Saçları dalğındı, bəyaz qarlıdı,
Övladlı, nəvəli, gözəl yarlıdı,
Mehriban bir kəsdi müəllim ömrü.

Həyatda hər zaman gözləri toxdu,
Ürək ovsunlayan sözləri çoxdu.
Dünyanın varında istəyi yoxdu,
Odlu bir nəfəsdi müəllim ömrü.

Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi, ləpəli çaydı,
Ömrü ömürlərə paylanan paydı,
Safdı, müqəddəsdi müəllim ömrü.

*birinci iştirakçının qiraətli çıxışından sonra ikinci iştirakçı Rəsul Murovdağlının "Müəllim" adlı şeirini deməyə başlayır.*

Bir müqəddəs zirvə idi müəllim,
Duyğu-duyğu, kəlam-kəlam əridi.
Bayram-bayram dərd topladı, qəm yedi,
Kədər-kədər, ələm-ələm əridi.

Vətən-Vətən, torpaq-torpaq çat oldu,
Dünya qurdu, bir quruca ad oldu…!
Kitab-kitab, dəftər-dəftər od oldu,
Vərəq-vərəq, qələm-qələm əridi...

*III iştirakçı xalq şairi Bəxtiyar Vahabzadənin “Müəllim”adlı şeirini deməyə başlayır.*

Müəllim! Gözəldən gözəldir bu söz-
Körpə könüllərdə məşəl yandıran!
Hələ yazılmamış, hələ qırışsız,
Hamar beyinləri cilalandıran.
Müəllim! Tez durub gec yatanımsan,
Bu gün, sabahımı yaradanımsan!

Mən bir toxum idim, sabahım-sirdi.
Mənə şəkil verən, rəng verənimsən.
Məni bu dünyaya anam gətirdi
Sənsə bitirənim, yetirənimsən.

Müəllim! Düşüncə güllərimizi
Əqlilə suvaran bir bağban oldu.
Endirdi yerlərə atamız bizi
Müəllim-göylərə qaldıran oldu.

Xəyala qol-qanad, gözə nur verdi
Müəllim! Biz sənə borcluyuq ancaq.
Əmir Teymura da şərəf gətirdi,
Ayağın altında əbədi yatmaq.

Şagirdin sayıdır dövlətin, varın
Bilməz bu qazancı, bilməz hər naşı.
Sinifdən sinifə adlayanların
Yaşında yaşayır müəllim yaşı.

Elmə güvəndinsə, bil ki, cənnətin
Qapısı üzünə açılacaqdır.
Məktəbi hər şeydən üstün millətin
Hər yerdə, hər işdə zəfəri-haqdır.

Gəl, ey heykəltəraş! Bu mərmər, bu gil.
Düşün müəllimi, sonra alış, yan.
Onun heykəlini mərmərdən deyil,
Yarat özü kimi nurdan, işıqdan.

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

*5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq, kitabxanada təşkil olunan bir sıra tədbirlərdən biri də* ***"Fırçalarda müəllim"*** *adlı rəsm müsabiqəsi keçirilə bilər.*
*5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq, kitabxanada təşkil olunan tədbirlərdən biri də* ***"Müəllim peşəsidir ən uca meyar"*** *adlı konfransdır.* Tədbir zamanı ilk olaraq kitabxanaçı səhnəyə yaxınlaşaraq 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar dəyərli məlumatlara keçid alır.
*Kitabxanaçı:* Müəllimlər gələcəyin əsgərləri, cəmiyyəti maarifləndirəndirlər. Müəllim yeri gəldikdə valideyn, yeri gəldikdə bacı və ya qardaş, yeri gəldikdə dostdur. Şagirdinin hər hansı narahatçılığını darıxmadan dinləyən, onu olduğu kimi qəbul etməyi bacaran və bizi mühakimə etməyən

müqəddəs dəyərlərdir. Müəllim ilk növbədə şagirdinə vətənə, topluma, cəmiyyətə qarşı layiqli insan, vətəndaş olmağı, insanlıq üçün faydalı işlər görməyi öyrədəndir.

Hər bir insanın həyatında çoxlu müəllimlər olur, onlar insan həyatında silinməz izlər buraxır. Xüsusilə ibtidai sinif müəllimi məktəblə, dərslərlə, hətta həyatla qarşılaşdığımız ilk anda əlimizdən tutub bizimlə var olur. Nə vaxtsa büdrədiyimiz zaman bizi qaldırır, bilmədiklərimizi söyləyir, cəsarətsiz anımızda bizi ruhlandırır, səhvlərimizi düzəldir. Bir sözlə, onun əlində xəmir kimi formalaşdırılıb işlənirik. Bu mənada ibtidai siniflərdə ilk müəllimlərimizin təsiri inanılmazdır.

*Kitabxanaçının çıxışından sonra qonaqlar öz çıxışlarına keçid alırlar.*

***I Oxucu:*** Dünyada gözəl, nəcib peşələr çoxdur. Həkim insanların sağlamlığının keşiyində dayanır, xəstələrə şəfa verir. Mühəndis fabrik və zavodları işlədir, hündür binalar ucaldır, yollar çəkir, körpülər salır. Kosmonavt fəzanı fəth edir, müxtəlif planetlərin sirlərini öyrənir...

Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. Həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır.

Bu xəzinəyə inamla daxil olanlar həyatın enişli-yoxuşlu yollarında büdrəmir, öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün biz bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa, buna görə ilk növbədə müəllimlərə minnətdar olmalıyıq. İnsan cəmiyyətinin əzəli və sonu müəllim əməyi ilə bağlıdır.

İnsanlar öyrənə-öyrənə kamilləşmiş, təbiətin sirlərinə yiyələnərək onu ram etmiş, yeni-yeni kəşflərlə öz həyatlarını yüngüliəşdirmişlər.

Deyirlər ki, hər kəsin taleyində müəllimin yeri var. Bu, həqiqətən belədir. Ona əlindən tutub əlifbanın ilk hərfini, "ana" kəlməsini yazmağı, saymağı öyrədən ilk müəllimini kim xatırlamır? Məktəb partası arxasında keçən illərdə müəllimlər bizə qətrə-qətrə Vətənə, torpağa sevgi hissi aşılayırlar. Biz Azərbaycanın kəşməkəşli tarixi, ana yurdumuzun təbiətinin gözəllikləri, xalqımızın dostları və düşmənləri barədə müəllimlərimizdən çox şey öyrənmişik.

Sevimli müəllimlərimiz bizə şifahi xalq yaradıcılığının, dastanlarımızın ruhunu aşılayıblar, eləcə də yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin - Nizaminin, Füzulinin, M.Ə.Sabirin, S.Vurğunun, C.Məmmədquluzadənin, H.Cavidin əsərlərinin incəliklərini öyrədiblər. Biz onların sayəsində bütün varlığımızla xalqımızın əsrlərin sınağından çıxan adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə bağlanmışıq, dünyagörüşümüz, həyata sağlam baxışımız formalaşıb.

Əlbəttə, bütün bunlar ani olaraq baş vermir, uğurlarımızın arxasında müəllimlərimizin illər boyu çəkdikləri gərgin zəhmət dayanır. Elə buna görə də cəmiyyətdə müəllimlik çox şərəfli, müqəddəs peşə hesab olunur. Alim də, sərkərdə də, bir sözlə, həyatda tutduğu mövqedən asılı olmayaraq hər kəs müəllimi qarşısında baş əyir, ona səcdə qılır, onu həmişə xoş duyğularla yada salır. Aşağıdakı misralarda şair insanların ilk müəllimləri ilə bağlı xoş arzularını səmimi şəkildə ifadə etmişdir:

**I İştirakçı:**

Günəşə çatsa da nurlu taleyim,
Səninlə bağlıdır arzum, diləyim.
Nə bir dərdim olar, nə də bir qəmim,
Sən yüz il yaşasan, ilk müəllimim!

Müəllim əməyini çox vaxt bağban əməyi ilə müqayisə edirlər. Bağban min bir zəhmətlə yetişdirdiyi ağacın bəhrəsini görəndə sevindiyi kimi, öz yetirmələrinin xoş sorağını alanda müəllimin də qəlbi sevincdən dağa dönür. Müəllimlərimiz ad-san sahibi olan yetirmələri barədə həmişə iftixar hissi ilə söhbət açırlar. Bu vaxt, adətən, xoş xatirələr göz önündə canlanır. Yetirmələrinin uğurları müəllimlərimizə sanki yeni güc verir, onları daha şövqlə işləməyə ruhlandırır.

Etiraf etmək lazımdır ki, təhsil sistemində haqqında ən çox danışılan, barəsində müzakirələr aparılan, peşəkarlıq səviyyəsi daim diqqət mərkəzində olan, eyni zamanda, şəxsiyyəti gözəl və təsirli ifadələrlə qiymətləndirilən, təbii ki, müəllimdir. Müəllimlik bütün zamanlarda şərəfli peşə hesab olunub, müəllim isə ən hörmətli şəxs kimi qəbul edilib. Dövrünə görə, təhsilin prioritet sayılan hansı istiqamətindən danışırıqsa-danışaq, fikir və mülahizələrimizin son dayanacağında yenə də Əlahəzrət Müəllim amili dayanır.
Müəllimlik peşəsini, rəmzi mənada olsa da, incəsənət adlandıranlar, fikrimcə, tam haqlıdırlar. Bununla belə, daha ciddi yanaşsaq, "mövcudatın ən şərəflisi olan insanı kamillik səviyyəsinə çatdırmaq məqsədi güdən" (Nəsrəddin Tusi), "insanda insan oyadan" (Rəsul Rza), insana ədəb, mərifət, savad öyrətməklə onu formalaşdırıb cəmiyyətdə müstəqil həyata hazırlamaq, inkişaf yoluna yönəltmək, dəyərli və məhsuldar vətəndaşa çevirmək peşəsi, yəni müəllimlik, əslində, incəsənətdən daha çox, mübaliğəsiz desək, canlı

möcüzə yaratmaq sənətidir. Bu fikri qəbul ediriksə, demək, cəmiyyətin, millətin tərəqqisi müəllimdən daha çox asılıdır. Mahiyyət etibarı ilə “müəllim”, “müəllimlik” anlayışları daha geniş məna tutumuna, əhatə dairəsinə malikdir. Hər hansı bir peşə üzrə sənətkar öz sənətini fərdi və ya qrup halında digərlərinə öyrədirsə, təbii ki, onu müəllim adlandırmaq mümkündür. Bəzən ibrət, təcrübə, nəticə çıxartmaq anlamında deyirlər ki, həyat böyük məktəb, böyük müəllimdir. Məşhur yazıçı M.Qorki həyatı “mənim universitetlərim” adlandırmışdı.

Birmənalı qəbul olunmalıdır ki, həyatını öz millətinin müstəqilliyi, istiqlalı, azadlığı, işıqlı gələcəyi yolunda şam kimi əridən, xalqının rəmzi və fədakarlıq simvolu səviyyəsinə yüksələn dahi şəxsiyyətlər “Millətin Müəllimi” adını daşımaqla müəllim adını daha yüksək dərəcədə şərəfləndirmişlər.

Məlumdur ki, müasir yanaşmada müəllim və şagird təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektləri kimi qəbul edilir. Bu hüquq bərabərliyi subyektlər arasındakı münasibətlərin pedaqoji əməkdaşlıq üzərində qurulması tələbində, həmçinin, onlar üçün təhsil qanunvericiliyi ilə müəyyən olunmuş vəzifələrin əlaqəliliyində, biri digərini tamamlamasında özünü büruzə verir. Məsələn, bir nümunəyə müraciət edək. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa görə, təhsilverənlərin vəzifəsi təhsil proqramlarının mənimsənilməsini təmin etməkdirsə, təhsilalanın da vəzifəsi dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməkdir.

Bununla belə, təlim-tərbiyə prosesində müəllimin məsuliyyət yükü xeyli dərəcədə daha artıqdır, çünki uşağın yetişib-formalaşıb vətəndaş mövqeli, çağdaş dövrün rəqabət meydanında sərbəst hərəkət etməyi bacaran, savadlı, yetkin,

ləyaqətli şəxsiyyətə çevrilməsinin təmin olunması cəmiyyətin, dövlətin əsas məqsədidir və bu məqsədin reallaşdırılmasının ağırlığı, heç şübhəsiz, müəllimlərin üzərindədir. Ulu öndər Heydər Əliyevin çox sadə ifadə olunmuş, lakin dərin məna kəsb edən və sanki bilavasitə mühüm vəzifə kimi məktəbə, müəllimə ünvanlanmış gözəl bir fikri vardır: "Hər bir insan həyatda öz yerini tapmalıdır". Həqiqətən də, hər bir fərdin həyatda yer tutmasının əsas təməli məktəbdə müəllimlər tərəfindən qoyulur.

**II İştirakçı:** Əlbəttə, cəmiyyətdə inkişaf tempinin yüksəldiyi, elmi-texniki tərəqqinin vüsətinin artdığı, qlobal təfəkkürün təsiri ilə dəyərlərin inteqrasiyası prosesinin baş verdiyi, həyati məsələlərə müxtəlif mövqelərdən yanaşıldığı bir vaxtda təhsilə, müəllimə olan tələblər də dəyişir. İnformasiya bolluğunun mövcud olduğu indiki şərait şagirdlərin mütaliə həvəsinə, hətta təhsillərinə təsirsiz ötüşmədiyi üçün "səriştəli, peşəkar müəllim" amili daha real ehtiyac kimi meydana çıxır. "Elin gözü tərəzidir" deyirlər. Bu məntiqlə yanaşıldıqda, heç şübhəsiz, məktəbin səviyyəsi əhalinin nəzərində, hər şeydən əvvəl, müəllimləri ilə tanınır.

Lakin məktəbə yeni təyin olunmuş müəllimdən nəzərdə tutulan peşəkarlığı tələb etmək sağlam məntiqdən uzaq məsələdir. Gənc müəllimin yetkinləşməsi, təcrübələnməsi üçün illər lazımdır, bununla belə, madam ki, diplomlu gənc müəllim məktəbə qədəm qoyur, sinfə daxil olub şagirdlərin qarşısına çıxır və tədrisə başlayırsa, demək, o, səviyyəcə minimum tələblərə cavab verməli, ilkin zəruri bacarıq və keyfiyyətləri mənimsəmiş olmalı, bir sözlə, məktəbə nəzəri cəhətdən, habelə, pedaqoji təcrübə vaxtı ali məktəb illərində qazandığı praktik pedaqoji vərdişlərlə hazır gəlməlidir. Əks-təqdirdə, nailiyyət və hörmət qazana, inkişaf edə bilməz. Elə hallar var ki, xüsusilə, ibtidai siniflərdə valideyn gənc

müəllimi görərkən məktəbin rəhbərliyinə etirazını bildirir, övladının başqa müəllimin sinfinə keçirilməsini, yaxud həmin müəllimin digər təcrübəli müəllimlə əvəzlənməsini tələb edir. Əlbəttə, valideynlərin mənfi rəyə köklənmiş proqnozları özünü həmişə doğrultmur, lakin narazılıqlara səbəb olan istisnalar da diqqət çəkir.

Beləliklə, hansı minimum nəzəri bilik və bacarıqlar işə başlayan gənc müəllimdə olmalıdır? Onlar təxmini tələblər formasında aşağıdakı kimi təsnif edilə bilər:

Gənc müəllimdə hansı bilik və bacarıqlar olmalıdır?

* Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri, ümumi təhsillə bağlı dövlət və hökumət sənədləri, təhsil qanunvericiliyi, əmək məcəlləsi barədə məlumatlıdır.

* Tədris etdiyi fənn üzrə məktəb proqramı səviyyəsində nəzəri biliklərə malikdir, fənnin məqsəd və vəzifələrinə, məzmun standartlarının mahiyyətinə bələddir, fənnin kurikulumunda nəzərdə tutulanların tədrisi metodikasını qismən mənimsəmişdir.

*Dərsə verilən müasir tələblər, dərsin tipləri və növləri, dərslərdə məqsədin formalaşdırılması və motivasiyanın yaradılması, tədris prosesində müvafiq təlim metodları və üsullarından istifadə, məktəbdaxili qiymətləndirmənin növləri və onların tətbiqi yolları barədə məlumatlıdır.

* Uşaq psixologiyası və yaş fiziologiyasının xüsusiyyətlərinə bələddir, şagirdlərə fərdi yanaşmaq və onlarla əməkdaşlıq etmək yolları haqda bilgiləri vardır.

*Şagirdlərlə əlavə məşğələlərin, sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsi, bu tədbirlərin fənnin vəzifələri və məzmunu ilə əlaqələndirilməsi, valideynlərlə əməkdaşlıq barədə metodik göstərişlərlə tanışdır və s.

**III İştirakçı:** Yeni fəaliyyətə başlayan gənc müəllimlərə yönəlmiş həmin təxmini minimum tələblərin diqqətə çatdırılması heç də təsadüfi xarakter daşımır, çünki müəllim hazırlığı ilə əlaqədar müəyyən çatışmazlıqların olması reallıqdır. Ona görə də, məktəbə təyinat almış gənc müəllimlərin göstərilən minimum tələblərə cavab verməsi və müvafiq bacarıqlara malik olması mütləq zərurət kimi nəzərə alınmalıdır. Həm də bu keyfiyyətlər məhz pedaqoji ali məktəblərdə aşılanmalı, gənc müəllimlər məktəblərə həmin bilik və bacarıqlarla, fənnin kurikulumunun tədrisi metodikası üzrə aydın təsəvvürlərlə silahlanmış halda gəlməlidirlər. Eyni zamanda, hesab edirik ki, pedaqoji ali məktəblərdə pedaqoji təcrübənin sonunda, habelə, tələbə məzun olarkən ona müəllimlik ixtisası üzrə diplomun verilməsində qeyd edilən tələblər (bacarıqlar) əsas indikator kimi götürülməlidir. Yerli təhsil orqanları, məktəb rəhbərləri də işə yeni başlamış müəllim kadrlarının fəaliyyətini tədricən məqsədyönlü şəkildə öyrənib lazım gəldikdə müvafiq tədbirlər görməli, rəy bildirməli, onlara metodikköməkliyi təmin etməlidir.

Göründüyü kimi, bu məqama qədər qeyd etdiklərimiz bilavasitə gənc, pedaqoji fəaliyyətə yeni qədəm qoyan müəllimlərlə bağlıdır və məntiqimiz də ondan ibarətdir ki, haqqında danışılan minimum nəzəri bilik və bacarıqlara nail olmadan məktəbin qapıları, diplomu olsa belə, həmin müəllimin üzünə açıla bilməz.

Məlum məsələdir ki, sadaladığımız keyfiyyətlər ilkin tələblər olsa da, əslində, hörmətli və nüfuzlu (əvvəlcə məktəbdə nüfuz qazanmalısan ki, cəmiyyətdə də nüfuzun olsun) əsl müəllim olmağın yolu elə həmin bünövrə tələblərindən keçir. Uşaqlara məhəbbət, peşəyə vurğunluq, öyrənmək eşqi, inkişaf meyli və zəhmətsevərlik olduqda

dünənin gənc müəllimi, bir neçə il ərzində səriştəli, qabaqcıl müəllimə çevrilə bilər. Bəs, qabaqcıllığı şərtləndirən keyfiyyətlər hansılardır? Bu haqda da, yeri gəlmişkən, aşağıdakı mülahizələrimizi bildirmək istərdik:

*Qabaqcıl müəllimə çevrilməyi şərtləndirən keyfiyyətlər*

*Fənn üzrə nəzəri biliklərin əsasında şagirdlərə həyati bacarıqların aşılanmasına üstünlük verilməsi, fənnin imkanlarının şəxsiyyətin formalaşdırılmasında maksimum dərəcədə nəzərə alınması.

* Təlim standartlarının tələblərinin səmərəli tətbiqi ilə bağlı dərslərdə məqsədyönlü üsul və vasitələrin seçilməsi.

* Qarşıya qoyulmuş məqsədə görə hər bir dərsin şagirdlərin marağına uyğun modelləşdirilməsi.

* Biliyin kateqoriyaları (deklarativ, prosedural, kontekstual), onların hər birinin mahiyyəti barədə məlumatlı olması, fənnin məzmun standartlarını həmin kateqoriyalara uyğunluq baxımından təsnif edilə bilməsi.

* Ənənəvi kurikulum və qiymətləndirmə siyasəti ilə müasir kurikulum və qiymətləndirmə siyasətinin fərqli cəhətlərinin müqayisə olunması, bunlarla əlaqədar ümumi təhsil sistemində yaranmış yeni baxış və düşüncə tərzinin qiymətləndirilməsi.

* Məktəbdaxili müasir qiymətləndirmə növlərinin (diaqnostik, formativ, summativ) şagird nailiyyətlərinin qiymətləndirilməsində rolu və əhəmiyyəti, onların mahiyyətinin əsaslı şərh edilməsi, həmin qiymətləndirmə növlərinin təlim prosesində prioritetlik gözlənməklə eyni səviyyədə tətbiq olunması.

* Fənnindən asılı olmayaraq, şagirdlərdə nitq mədəniyyəti formalaşdırılmasının diqqətdə saxlanılması.

* İstedadlı şagirdlərin fənn olimpiadalarına hazırlanması.

* Gənc müəllimlərə pedaqoji himayə edilməsi.

*   Fənnin tədrisi metodikası, proqram və dərsliklərlə bağlı qeyd və mülahizələrin bildirilməsi və s.

Qeyd olunan keyfiyyətlər, bacarıqlar müəyyən mənada müəllimin müsbət cəhətlərini, qabaqcıllıq meyillərini ifadə edirsə (bunlara əlavələr də etmək mümkündür), bu tələblərin yerinə yetirilməsinə həm də yaradıcı yanaşan müəllimlərin uğurları daha diqqətçəkən olur.

Yaradıcı yanaşma mövcud olana qeyri-standart münasibətdir, onu yeniləmək, inkişaf etdirmək marağıdır. Bunlarla bərabər, yaradıcı yanaşma həm də mövcud olanların arasından ən əhəmiyyətlisini seçmək, zəruri olanı fərqləndirmək, ümumi nəticəyə hansı amilin daha müsbət nəticə verəcəyini əvvəlcədən təxmin etmək qabiliyyətidir.

Məsələn, məktəbdaxili qiymətləndirmələrə nəzər salaq. Sirr deyil ki, əksər müəllimlər summativ qiymətləndirməyə daha çox diqqət ayırırlar. Halbuki şagirdin təhsil uğurunun açarı diaqnostik qiymətləndirmənin əlindədir (bu, ibtidai siniflərə xüsusilə şamil olunur). Şagirdin meyil-maraq dairəsini, psixologiyasını, fərdi xüsusiyyətini, qavrama səviyyəsini, təfəkkür istiqamətini öyrənmədən, üstün-zəif cəhətlərini bilmədən, hətta valideynləri, məişət şəraiti, ailəsindəki mənəvi mühit barədə məlumatlanmadan ona hər hansı şablon tələb, münasibət necə tətbiq etmək olar?! Məhz sadalananlar əsasında şagirdin “təhsil üzrə yol xəritəsi” müəyyən olunur, formativ qiymətləndirmə vasitəsi ilə geriləmələri-irəliləyişləri izlənir, nəticəyə görə inkişafı üçün müvafiq tədbirlər müəyyənləşdirilib həyata keçirilir. Öz peşəsinə bu cür yanaşan müəllim heç vaxt “bilmirsən” deyib şagirdə “2” qiymət yazmaz, “öyrətmək” missiyasını ləyaqətlə yerinə yetirər.

Yaxud, müəllimin təhsil texnologiyalarına (metod, üsul, vasitə və s.) yaradıcı münasibəti, onları yeni çalarlarla

zənginləşdirməsi, dərslərin məqsədinə səmərəli uyğunlaşdırması bütövlükdə dərsin strukturuna fərqli yanaşma tərzi formalaşdırır, ümumiyyətlə, müəllimi təhsil texnologiyalarının təkmilləşdirilməsinin təminatçısına çevirir. Eləcə də, mənimsədilməsi nəzərdə tutulan bilik və bacarıqların mahiyyət saxlanmaqla şagirdlərin qavrama səviyyəsinə uyğun daha asan başa düşülən müxtəlif məzmunda təqdim edilməsi, dərslərin düşündürücü üstqurumda fəal müəllim-şagird əməkdaşlığı şəraitində qurulması peşəyə yaradıcı yanaşmanın təzahürlərindəndir. Həmçinin, bu da bir həqiqətdir ki, yaradıcılıq təkcə müəllimin daxili potensialı ilə məhdudlaşa bilməz. O, əlbəttə, metodik ədəbiyyatları mütaliə etməli, pedaqoji mətbuatı izləməli, öyrədici təlimlərə, layihələrə qoşulmalı, gördüklərini və eşitdiklərini təhlil etməyi, onlara tənqidi münasibət bəsləməyi və nəticə çıxarıb öz rəyini formalaşdırmağı bacarmalıdır. Yalnız bu yolla müəllim təkmilləşir, yeni-yeni ideyalar və onların tətbiqi haqda düşünür, təqdimatlar, nümunə və ustad dərsləri vasitəsi ilə təcrübəsini, düşüncələrini həmkarları ilə bölüşür.

Yeri gəlmişkən, çox uzun müddətdən bəridir ki, pedaqoji aləmdə belə bir anlayış mövcuddur: “Qabaqcıl təcrübə”. Əslində, “qabaqcıl” ifadəsini təcrübəylə deyil, müəllimlə bağlı işlətmək, fikrimizcə, daha məntiqlidir. Belə ki, müəllimin digərlərindən fərqlənən fəaliyyət üslubu, iş metodikası, ideya və təklifləri hər hansı bir eksperiment meydançasında təcrübədən, sınaqdan uğurla keçərsə, məhz həmin müəllim qabaqcıl, yaradıcı müəllim adlandırılır və onun iş metodlarının digər yerlərdə də öyrənilməsi və yayılması tövsiyə olunur. Bu mənada “təcrübə” sözünün təyini kimi “səmərəli” ifadəsini işlətmək daha yerinə düşər.

Sirr deyil ki, cəmiyyətdə müəllim “öyrədən”, şagird “öyrənən” anlamında qəbul edilir. Öyrətmə və öyrənmə prosesi o vaxt səmərə verir, baş tutur ki, bu iki təhsil subyekti arasında mənəvi-psixoloji uyğunluq, qarşılıqlı səmimiyyət yaranır, inzibati hədd aradan qaldırılır, müəllim şagirdin həmdəminə, dostuna çevrilir. Şagird öz xüsusiyyəti, potensial imkanları ilə özünə yanaşma tərzini, öhdəsindən gələ biləcək təhsil yükünü diktə edir. Bu amilləri qəbul edən və fəaliyyətini həmin istiqamətdə quran, heç bir şagirdi nəzərindən qaçırmayan, onları ruhlandırmaqla hər birində digərləri, hətta valideynləri üçün gizli qalan istedad və qabiliyyət rüşeymini tapıb inkişaf etdirməyə qabil olan müəllim, şübhəsiz ki, əsl müəllimdir.

*Tədbirin sonunda kitabxananın metodisti oxuculara müəllim haqqında düşündürücü hekayələr silsiləsindən nümunələr oxuyur.*

Bir həftə idi ki, anası bərk xəstələnmişdi. Son üç gün isə, ümumiyyətlə, qızdırması düşmürdü. Bütün günü anasına qulluq edir, gecələr də yanından çəkilmirdi. İmtahana elə bu səbəbdən hazırlaşa bilməmişdi. Stress, gərginlik, anasının xəstəliyi onu bərk sarsıtmışdı, fikrini toplamağa mane olurdu. Bu gün isə imtahan günü idi. Dostuna:-Mən hazır deyiləm.

-Nə danışırsan, neyləyəcəksən?

- Bilmirəm.

Adı çəkiləndə ürəyi tez-tez döyünməyə başladı. Nə edəcəkdi, müəlliminin gözünə baxmağa utanırdı. Nə cavab verəcək, “anam xəstə idi” desə, bu bəhanə kimi səslənməyəcəkdi ki? Belə vəziyyət onun üçün yad idi. Həmişə birinci olub, istər məktəbdə, istər universitetdə. Hamının sevimlisi, nümunəvi olmaq, hər kəsin hörmət dolu baxışlarına yaman öyrəşmişdi, xüsusən də müəllimlərinin. Bəs bu gün? Bu onun üçün

cəhənnəm əzabı idi. Müəlliminin səsi onu fikirlərindən ayırdı:
- Bilet çək!
O, fikirli-fikirli bilet çəkdi. Təbii ki, onun vəziyyəti müəlliminin gözündən yayına bilməzdi. Sadəcə üz vurmadı. Biletə baxdı. Bir dənə də olsun sualın cavabını əla bilmirdi. Olsa-olsa "kafi" ala bilərdi. Bu isə gələcəkdə fərqlənmə diplomu arzusunun üstündən xətt çəkmək demək idi. Gözləri dolmuşdu. Güclə özünü ələ aldı.
- Mən hazır deyiləm.
Müəllim gülümsədi, mənalı baxışlarla:
-Bunun əsaslı səbəbi olar yəqin?
-O, susurdu. Başını aşağı saldı. Müəllim qiymət kitabçasına nəsə yazırdı. Bu anın tez bitməsini istəyirdi. Bircə qiymət kitabçasını alıb, auditoriyanı tərk edə bilsəydi. Müəllimin səsi sükutu pozdu:
-Oxuyarsan.
Onun gözləri dolmuşdu.
- Mən gedə bilərəm?
-Gedə bilərsən.
Axır ki, otaqdan çıxmışdı. Dərindən nəfəs aldı. Son günlər çox ağır keçmişdi. Qiymət kitabçasını açdı. Gözlərinə inana bilmədi. "Əla" ? Bu ola bilməz. Demək müəllimi semestr boyu mühazirələrdə onun fəallığını, istedadlı gənc olduğunu nəzərindən qaçırmamışdı. Bu hadisə ona böyük dərs oldu. Bildi ki, əziyyət heç vaxt yerdə qalmır.
*Kitabxanada hər zaman oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar olaraq kitabxana tərəfindən məktəblər arasında təşkil olunmuş*

**“Mənim ilk müəllilmim”** *adlı inşa yazı müsabiqəsi təşkil olunur. Müsabiqə kitabxananın saytında, sosial şəbəkələrində elan olunur. Müsabiqə zamanı xeyli sayda məktəblilər müsabiqəyə cəlb olunur və bu haqda məlumatlandırılırlar. Oxucular bu günün mahiyyəti ilə tanış olur və əlamətdar günə uyğun inşa yazı işlərini yazaraq kitabxananın elektron ünvanına yollayırlar. Yazıların hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir.*

*Müsabiqənin sonuncu günündə iştirakçılar kitabxanaya dəvət edilərək mükafatlandırılır.*

*5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar kitabxanaçı tərəfindən* ***“Müəllimdir ən gözəl insan”*** *adlı sual-cavab gecəsi təşkil edilə bilər. Kitabxanaçı əlamətdar gün haqqında bir sıra əsaslı məlumatlar verir:*

Əziz uşaqlar, bildiyiniz kimi 5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür. Bu əlamətdar gün hər il ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Azərbaycan təhsil müəssisələrində çalışan müəllimlərimizin bu əlamətdar hadisədə mütləq payı vardır.

Müəllim müqəddəsdir, bütün dövrlərdə bu peşə sahiblərinin üzərinə böyük vəzifələr düşüb. İnsanlara bilik vermək, elm öyrətmək kimi mühüm vəzifənin öhdəsindən onlar gəlir. Müəllimlik şərəfli işdir, çünki o, öz həyatını xalqın gələcəyinə həsr edir. Müəllimlik məsuliyyətli işdir, çünki gələcək nəsillərin böyüməsində və tərbiyə olunmasında həlledici rol oynayır.

*Kitabxanaçı qısa məlumatdan sonra şagirdlərə sual vərəqəsini paylayır. Sualları sizə təqdim edirik.*

1. Bütün dünyada, eləcə də Azərbaycanda 5 oktyabr hansı əlamətdar gün kimi qeyd olunur?
   a. Azərbaycan Nefçilər Günü
   b. Ümumxalq Hüzn Günü
   c. Beynəlxalq Müəllimlər Günü

2. Müəlim peşəsi ilə bağlı qələmə alınan şeirlərdən bir neçəsini sitat gətirə bilərsiniz?

______________________

______________________

______________________

______________________

3. Kitabxanamızın adını daşıdığı görkəmli Azərbaycan maarifçi-pedaqoqu F.Köçərli Azərbaycanda hansı təhsil müəssisəsində müəllim və rəhbər vəzifəsində fəaliyyət göstərmişdir.

a. Qori Müəllimlər Seminariyası
b. Rus-Müsəlman Qız Məktəbi
c. Cəmşid Naxçıvanski adına hərbi lisey

4. Sevimli Xalq şairi B.Vahabzadənin bu şeirini tamamlayın.

Ey hörmətli müəllim,
Hər könüldə yerin var.
__________________
__________________

Əkdiyin ağacların
Gülü, çiçəyi solmaz.
Dünyada sənin kimi
Barlı bağban tapılmaz.

a. Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan...

b. Hər kənddə, hər şəhərdə
Sənin meyvələrin var...

c. İstəyi,arzusu çaglayan ümman,
Həyatın ən uca sözüdür Müəllim!!!

5. oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə neçənci ildə YİNESKO tərəfindən verilib?

a. 1966-cı ildə
b. 1993-cü ildə
c. XIX əsrin sonunda

6. Azərbaycanda Beynəlxalq Müəllimlər Günü neçənci ildən qeyd edilməyə başlanıb?

a. 1993-cü ildən
b. 1966-cı ildən
c. 2000-ci ildən

7. Müəllimi, alimi, həkimi, mühəndisi və s. cəmiyyətə layiqli şəxsiyyət olaraq yetişdirən insan hansı peşə sahibləridir?

a. həkimlər
b. müəllimlər
c. alimlər

8. “Təhsil bizim gələcəyimizdir”. Bu sitat hansı şəxsiyyətə aid fikirlərdir?

a. İlham Əliyev
b. Zəlimxan Yaqub
c. Azərbaycan müəllimi

9. Azərbaycan Pedoqoji Universiteti kimin adını daşımaqdadır.

a. N.Tusi

b. F. Köçərli adına

c. Yusif Məmmədəliyev

10. Əgər müəllim peşəsini seçsəydiniz, hansı ixtisas müəllimi olardınız?

______________________________________

Suaslların cavabı:

1. c,
2 -----
3. a,
4. b,
5. a,
6. a,
7. b,
8. a,
9. a,
10. -----

5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı:

**Abbasov A**. Ümummilli lider Heydər Əliyev müəllim və müəllim şəxsiyyəti haqqında // Təhsil problemləri. - 2018. - 16-23 mart. - **№ 21/22**. - S. 1-2.

**Abdullayeva M**. Müəllim dünyanın xilaskarı : Humanist pedaqogikanın fəlsəfi və psixoloji əsasları // Füyuzat. - 2018. - **№ 6**. - S. 26-30.

**Abdullayeva S**. Müəllim-şagird-valideyn münasibətlərinin mərkəzində : Kurikulumlar məhsuldar fəaliyyəti tənzimləyir // Azərbaycan Müəllimi. - 2019. - 16 avqust. - **№ 30**. - S. 8.

**Abiyeva K**. Cəmiyyət və müəllim // 525-ci qəzet. - 2019. - 29 iyun. - **№ 93**. - S. 7.

**Ağayev R**. Müəllim canlı abidədir // 525-ci qəzet. - 2022. - 17 may. - **№ 84**. - S. 12-13.

**Bayramova Z**. 5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür // Səs. - 2016. - 5 oktyabr. - **№ 181**. - S. 7.

**Bəşirov Ə**. Məktəb islahatının aparıcı qüvvəsi: səriştəli müəllim // Azərbaycan Müəllimi. - 2016. - 3 dekabr. - **№ 47**. - S. 12.

**Beynəlxalq** Müəllimlər **Günü** Cocuq Mərcanlıda // Azərbaycan Müəllimi. - 2017. - 6 oktyabr. - **№ 38**. - S. 7.

Boylanmışıq günəş bilib üzünə : Beynəlxalq **Müəllim**lər Gününə həsr olunmuş tədbir // Göy qurşağı. - 2015. - **N 5(sentyabr-oktyabr)**. - S. 6-8.

**Cəfəroğlu Ə**. Müəllim nəsihəti : hekayə // İşıq. - 2018. - **№ 3(95)**. - S. 46-49.

**Ələddinqızı N**. 5 oktyabr Beybəlxalq Müəllimlər Günüdür : Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir // Səs. - 2018. - 5 oktyabr. - **№ 188**. - S. 5.

**Əliyev H**. Bayramınız mübarək : 5 oktyabr Beynəlxalq Müəllimlər Günü // Təhsil problemləri. - 2009. - 21-30 sentyabr. - N 53-54. - S. 6.

**Əliyev R**. Müəllimlə şagird arasındakı qırılmaz tellər // 525-ci qəzet. - 2019. - 6 dekabr. - **№ 160**. - S. 13.

**Əliyeva İ**. Müəllim dünyanın ən yüksək adıdır : 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Azərbaycan. - 2014. - 4 oktyabr. - **№ 217**. - S. 9.
**Əliyeva İ**. Müqəddəs peşə : 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Azərbaycan. - 2012. - 5 oktyabr. - **№ 223**. - S. 7.

**Əliyeva İ**. Şərəfli peşə sahibləri : 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Azərbaycan. - 2013. - 5 oktyabr. - **№ 220**. - S. 6.

**Əsədova Q**. Uşaqlara diqqət və qayğı ilə yanaşırıq : 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Respublika. - 2012. - 5 oktyabr. - **№ 223**. - S. 6.

**Əzimova S**. Müəllimlik dəyərli, müqəddəs peşədir // Respublika. - 2017. - 5 oktyabr. - **№ 216**. - S. 7.

**Əzimzadə Y**. Şəxsiyyətin inkişafı və tərbiyəsində müəllim peşəkarlığı və səriştəliliyi // Kurikulum. - 2016. - **№ 4**. - S. 31-34.

**Hacıbəyli A**. Şagird şəxsiyyətinin formalaşmasında müəllimin rolu // İşıq. - 2019. - **№ 3**. - S. 36-39.

**Hüseynova S**. Öyrətmək yenidən öyrənməkdir : Təlim-tərbiyə verən dəyərli məktəb müəlimləri // 525-ci qəzet. - 2022. - 13 may. - **№ 82**. - S. 12.

**İbrahimov K**. Müəllim pedaqoq olmaqla yanaşı, həm də psixoloq olmalıdır // Azərbaycan Müəllimi. - 2017. - 19 may. - **№ 18**. - S. 10.

**İsmayılova T**. Təlim prosesinin idarə edilməsində müəllimin rolu // Kurikulum. - 2016. - **№ 4**. - S. 26-30.

**Lələdağ Ə. M**. Dünyada elə dahi tapılmaz ki... : 5 oktyabr - Beynəlxalq Müəllim günü // Azərbaycan müəllimi. - 2006. - 6 oktyabr. - S. 2.

Maarif fədaisi : 5 oktyabr Beynəlxalq **Müəllimlər** Günüdür // Azərbaycan. - 2011. - 5 oktyabr. - **№ 219**. - S. 8.

**Mahmudova G**. Müəllim nümunə olmalıdır : Qarabağ gündəliyi // Azərbaycan Müəllimi. - 2021. - 26 fevral. - **№ 8**. - S. 10.

**Məmmədov S**. Müəllimlik şərəfli olduğu qədər də məsuliyyətli peşədir // Xalq qəzeti. - 2017. - 5 oktyabr. - **№ 217**. - S. 6.

**Məmmədova N**. Müasir dərs və müəllim // Azərbaycan Müəllimi. - 2017. - 4 mart. - **№ 8**. - S. 12.
**Mükərrəmoğlu M**. 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Xalq qəzeti. - 2009. - 4 oktyabr. - N 220. - S. 8.

**Musa Ə**. Vətən ; Müəllim : şeirlər // Savalan. - 2017. - 13-19 iyun. - **№ 26**. - S. 3.

**Musaoğlu A**. Müəllim : hekayə // Ədəbiyyat qəzeti. - 2017. - 30 sentyabr. - **№ 34**. - S. 4-5.

**Nəcəfxanlı Ə**. "Önündə baş əydim, əziz müəllim..." : 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Xalq qəzeti. - 2009. - 6 oktyabr. - N 221. - S. 4.

**Nərimanoğlu M**. Şərəfli ömür yaşayanlar // Azərbaycan : qəzet. - 2017. - 5 oktyabr. - **№ 217**. - S. 7.

**Orucəliyev N**. Şərəfli ömür sahibi : Onun müəllimlik fəaliyyətində tələbkarlıqla qayğı üzvi bağlılıq təşkil edirdi // Azərbaycan Müəllimi. - 2019. - 29 noyabr. - **№ 45**. - S. 15.

**Qarayeva S.** Müəllim peşəsinə maraq ildən-ilə artır // 525-ci qəzet. - 2019. - 19 yanvar. - **№ 12**. - S. 7.

**Qasımov H**. Gəncədə bu il hər iki məzundan biri tələbə adını qazanıb : 5 oktyabr Müəllim Günüdür // Xalq qəzeti. - 2015. - 5 oktyabr. - **№ 215**. - S. 4.

**Qənbərova Y**. Müəllimin şagirdlərə münasibətində mənəvi xüsusiyyətlərin rolu // Məktəbəqədər və ibtidai təhsil. - 2016. - **№ 4**. - S. 17-19.

**Qəndilova S**. Şərəfli ömür yolu // Respublika. - 2017. - 5 oktyabr. - **№ 216**. - S. 6.

**Rəhimov N**. Beynəlxalq Müəllimlər Günü təntənəli şəkildə qeyd olundu // Azərbaycan Müəllimi. - 2012. - 12 oktyabr. - **№ 40**. - S. 2.

**Rüstəmov F**. İlahi missiya : Müəllim - ən uca ad, ən şərəfli peşə // Azərbaycan Müəllimi. - 2018. - 19 oktyabr. - **№ 39**. - S. 12.

**Rüstəmov F**. İnsan kapitalının bilik və innovasiyalara əsaslanan inkişafında müəllimin rolu // Kurikulum. - 2017. - **№ 4**. - S. 18-26.

**Sabir M**. Müəllim ; Çətin taparsan məni : şeirlər // Savalan. - 2016. - 2-5 dekabr. - **№ 54**. - S. 3.

**Səfərov R**. Milli təhsil quruculuğu tarixindən : Azərbaycan Xalq Cümhuriyyəti dövründə müəllim və pedaqoqların II qurultayı // Kaspi. - 2018. - 13 noyabr. - **№ 192**. - S. 15.

Şərəfli peşə sahibi : 5 oktyabr Beynəlxalq **Müəllimlər günü**dür. // Respublika. - 2009. - 6 oktyabr. - N 221. - S. 5.

**Sətdarqızı A**. Sevgi paylayan : Müəllim peşəsi haqqında // İşıq. - 2019. - **№ 3**. - S. 16-17.

**Sevinc.** 5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür // Həftə içi. - 2016. - 5 oktyabr. - **№ 174**. - S. 3.

**Sevinc.** Bu gün Beynəlxalq Müəllimlər Günüdür : Azərbaycanda müəllimlərə göstərilən dövlət qayğısı ilbəil artır // Həftə içi. - 2017. - 5 oktyabr. - **№ 179**. - S. 6.

**Sevinc.** Ey, hörmətli müəllim! : 5 oktyabr Ümumdünya Müəllimlər Günü 100-dən çox ölkədə xüsusi qeyd edilir // Həftə içi. - 2018. - 5 oktyabr. - **№ 175**. - S. 6.

**Sevinc.**El bilir ki, sən müəllimsən! : Son illər cəmiyyətdə müəllim nüfuzunun yüksəldilməsi yönündə atılan addımlar öz bəhrəsini verir // Həftə içi. - 2017. - 4-6 noyabr. - **№ 201**. - S. 6.

**Tağıyeva G**. Müəllim-şagird münasibətləri // Kurikulum. - 2016. - **№ 4**. - S. 54-56.

Uğur qazanmaq üçün : Təlim-tərbiyə prosesinin keyfiyyətcə yaxşılaşdırılmasına, təhsilin elmi-nəzəri praktiki əsaslarla qurulmasına xüsusi önəm verəcəyik : 5 oktyabr Beynəlxalq **Müəllimlər** Günüdür // Mədəni həyat. - 2012. - **№ 9**. - S. 25-28.

**Veysova Z**. Azərbaycanda müəllimlərin peşə ehtiyaclarının öyrənilməsi və müəllim üçün peşəkar kursların kataloqu // Kurikulum. - 2016. - **№ 2**. - S. 5-11.

**Yusifoğlu R**. Əziz insan; Müəllim ; Müəllim qələmi : 5 oktyabr - Müəllimlər Günü : şeirlər // Göyərçin. - 2016. - **№ 10**. - S. 2-3.

**Yusifoğlu R**. Əziz insan; Müəllim ; Müəllim qələmi : 5 oktyabr - Müəllimlər Günü : şeirlər // Göyərçin. - 2016. - **№ 10**. - S. 2-3.

**Yusifoğlu R**. Müəllim : şeir // Göyərçin. - 2019. - **№ 10**. - S. 3.

**Yusifoğlu R**. Müəllim qələmi : şeir // Göyərçin. - 2020. - **№ 10**. - S. 3.

**Zülfüqarqızı H**. Ən yüksək, şərəfli addır müəllim // Təhsil problemləri. - 2017. - 16 - 23 oktyabr. - **№ 77/78**. - S. 15.

**Zümrüd.** 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Səs. - 2017. - 5 oktyabr. - **№ 180**. - S. 13.

# Müəllim keçmişi öyrədən, gələcəyi qurandır

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: [www.clb.az](http://www.clb.az)**